# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



3

№ 022 (7432)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

13 mart 2026-cı il.
Qiyməti 1 manat

# Prezident: Qlobal təhlükəsizlik bir nömrəli prioritet olmalıdır




2

*Martın 12-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumu işə başlayıb.*

# Dünyada su istifadəsinə görə Azərbaycan hansı sırada qərarlaşıb?



6

*Dünyada su ehtiyatlarının istifadəsi ölkələr arasında fərqli səviyyədədir və bu fərq əsasən əhalinin sayı, iqtisadi inkişaf səviyyəsi, sənayeləşmə, kənd təsərrüfatının miqyası və iqlim şəraiti ilə bağlıdır.*

## Hikmət Hacıyev: "Çoxtərəfli əməkdaşlıq kiçik və orta dövlətlər üçün ədalətli platformadır"




5

## Bağırsaq xərçəngi "gəncləşir"



7

## Kişilər, hazırlaşın: duz haqqı verəcəksiniz



5

## Azərbaycan poeziyasının böyük şairi



6

## Ailə büdcəsinə necə qənaət edək?



8

# Prezident: Qlobal təhlükəsizlik bir nömrəli prioritet olmalıdır

***Martın 12-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumu işə başlayıb. Azərbaycan Prezidenti Forumun açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı çıxışında qeyd edib ki, Qlobal Bakı Forumu dünyanın ən nüfuzlu tədbirlərindən biridir.***









"Builki Forumun gündəliyi çox genişdir. Forum bir çox məsələləri əhatə edir, lakin əminəm ki, müzakirələr zamanı xüsusi diqqət bölgəmizdəki və dünyadakı mövcud vəziyyətə yönələcək. Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik və sabitlik əsas amillər olmalıdır və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik"-deyə Azərbaycan lideri bildirib.

### "Biz dünya miqyasında nadir bir təcrübəyə malikik"

Dövlət başçısı onu da qeyd edib ki, regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub: "Mən Bakıda bir çox forumlardakı çıxışlarımda qeyd etmişəm ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, hələlik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququ çərçivəsində həyata keçirdik.

Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik- milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi. Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu, mənfi təcrübə olmuşdur.

Daha sonra 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq və düşünürəm ki, bu da mühüm göstəricidir. Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə,- müasir dedikdə son onillikləri nəzərdə tuturam,- nadir bir təcrübədir- ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi.

Üçüncü təcrübə isə sülh təcrübəsidir- sülhə necə nail olmaq olar. Bu isə asan iş deyil. Biz görürük ki, uzunmüddətli münaqişələr davam edir və qlobal xəritədə yeni gərginlik nöqtələri yaranır. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət 2 ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur"- Prezident İlham Əliyev qeyd edib.

### "Azərbaycan qlobal enerji təhlükəsizliyinə töhfə verir"

Dövlət başçısı iqtisadi əlaqələrin bərpası və əməkdaşlığın artırılması ilə bağlı işlərdən də danışıb: "Biz Ermənistana müxtəlif istiqamətlərdən malların daşınmasına qoyulmuş bütün məhdudiyyətləri aradan qaldırdıq. Hətta Ermənistanla ticarəti bərpa etmişik. Onlar üçün həyati əhəmiyyət kəsb edən neft məhsullarının ixracına başladıq və bununla da göstərdik ki, biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik. Bu, bizim strategiyamız və siyasətimizdir və bir daha onu nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir.

...Xüsusilə indi paylaşa biləcəyimiz digər vacib bir təcrübə enerji təhlükəsizliyidir, hansı ki, hazırda müəyyən dərəcədə pozucu təsir göstərir. Biz görürük ki, neft və qaz qiymətlərinin kəskin yüksəlişi yalnız istehlakçılar üçün deyil, geniş mənada bir çox problemlər yaradır. Kimsə düşünürsə ki, bu tarazlaşdırılmamış qiymət neft istehsalçıları və ixracatçıları üçün faydalıdır, bu yanlışdır. Çünki bir çox ölkələrin, neft və digər faydalı yanacaq istehsal və ixrac edən ölkələrin suveren fondları var və bu fondlar müxtəlif maliyyə alətlərinə, o cümlədən istiqrazlara investisiya qoyurlar. Birjalar çökdükdə isə bu ölkələr yüksək neft qiymətindən qazandıqlarından daha çox itkiyə məruz qalırlar. Buna görə də biz OPEC+ formatının məsuliyyətli üzvü olaraq, tarazlı və proqnozlaşdırılabilən neft qiymətinin tərəfdarıyıq, ortaq həllin tapılmasına böyük səylər göstərmişik və OPEC+-dakı vasitəçilik fəaliyyətimiz yüksək qiymətləndirilir.

Bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır. Azərbaycan bütün enerji seqmentlərinin– neft, qaz, neft məhsulları, neft-kimya məhsulları və elektrik enerjisinin istehsalı və ixracı ilə məşğuldur. Bazarda tələb və tədarük coğrafiyasının genişlənməsi ilə bağlı biz ixracımızı, xüsusilə təbii qaz və elektrik enerjisinin ixracını artırmağı planlaşdırırıq. Keçən il - düz bir il əvvəl görüşdüyümüz zaman bizdən qaz alan ölkələrin sayı 12 idi. Bir il ərzində bu göstərici 16-ya yüksəldi və onların hamısı Azərbaycandan qazı boru kəmərləri vasitəsilə alır. Beləliklə, boru kəmərləri vasitəsilə təbii qaz ixracatçısı kimi, ölkələrin coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. İxrac həcmi artmaqda davam edir və artacaq, bu isə bir çox ölkə üçün enerji təhlükəsizliyi baxımından mühüm amildir. Azərbaycan beynəlxalq bazara etibarlı neft təchizatçısı kimi enerji təhlükəsizliyinə töhfəsini verməyə davam edəcək".

### "Nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırmışıq"

Prezident çıxışında enerji, nəqliyyat və logistika sistemlərinin əhəmiyyətinə də toxunub: "Biz görürük ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirləri sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta Dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır.

İndi isə biz mövcud dəhlizlərin yükaşırma qabiliyyətinin artırılmasına əlavə vəsait yatırırıq, çünki Azərbaycan ərazisindən istifadəyə tələbat artır. Biz bir çox ölkələr, həm Azərbaycanın şərqində, həm də qərbində yerləşən ölkələrin mühüm tranzit ehtiyaclarını təmin edirik. Hazırda isə Ermənistanla sülh əldə edildikdən sonra Orta Dəhlizin yeni istiqaməti üzərində yaxından işləyirik, bu istiqamət Ermənistan ərazisindən keçəcək. Ermənistan isə bu gün belə olmadığı halda, müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq. Bu isə bizə Azərbaycanın iki hissəsini– əsas hissəsi və Naxçıvan Muxtar Respublikasını davamlı nəqliyyat, enerji, optik kabel və elektrik xətləri, həmçinin potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Beləliklə, bu, bizim üçün, yeni ümumilikdə hamı üçün qarşılıqlı uduşlu vəziyyət yaradacaq. Bu yeni fürsətdən həqiqətən yararlanmaq olar, çünki biz Azərbaycanın iki hissəsini nəqliyyat infrastrukturu ilə birləşdirəcəyik. Artıq qeyd etdiyim kimi, yeni istiqamət yaradacağıq, bu isə bir çox ölkə üçün faydalı olacaq".

"Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr olunan budəfəki Forumda dünyanın müxtəlif regionlarından nüfuzlu siyasi xadimlər, o cümlədən fəaliyyətdə olan və sabiq prezidentlər, baş nazirlər, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edirlər.

***Elçin Bayramlı***



*Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç ilə görüşüb. Söhbət zamanı Prezident İlham Əliyevin Jelka Tsviyanoviçlə görüşləri məmnunluqla xatırlandı, ölkələrimiz arasında münasibətlərin genişlənməsi qeyd edildi, müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu. Jelka Tsviyanoviç ənənəvi olaraq keçirilən Qlobal Bakı Forumunda bir neçə dəfə iştirak etdiyini bildirdi.*

# “Ölkələrimiz arasında münasibətlər genişlənir”

*Prezident İlham Əliyev Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç ilə görüşüb*

Görüşdə XIII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin yüksək səviyyədə təşkil olunduğu qeyd edildi. Forumda həmişə olduğu kimi bu dəfə də, xüsusilə dünyada hazırkı vəziyyət fonunda çox aktual qlobal məsələlərin müzakirə edildiyi vurğulandı.

# Hökumət inzibati cərimələrlə bağlı bu qaydanı təsdiqlədi




***İnzibati cərimələrin qaytarılması Qaydası təsdiqlənib. Bununla bağlı Baş nazir Əli Əsədov Qərar imzalayıb. Qərarla artıq ödənilmiş, düzgün tətbiq edilməmiş və ya səhv ödənilmiş inzibati cərimələrin (müvafiq olaraq hesablanmış dəbbə pulu daxil olmaqla) (bundan sonra – artıq ödəmənin) qaytarılması qaydası müəyyən edir. Qərara əsasən, artıq ödənilmiş inzibati cərimə dövlət büdcəsindən və (və ya) inzibati cərimə növündə inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmiş səlahiyyətli orqanların hesablarından qismən və ya tamamilə qaytarılacaq.***

Artıq ödəmə barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin və ya inzibati cərimə ödəyən digər şəxsin yazılı və ya elektron müraciətinə əsasən 20 gün müddətində qaytarılacaq.

İnzibati cərimənin qaytarılması ilə bağlı məhkəmə qərarı qanunvericiliyə uyğun icra ediləcək. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və ya inzibati cərimə ödəyən digər şəxs artıq ödəmənin qaytarılmasını inzibati cərimənin ödənildiyi tarixdən 5 il müddətində tələb etmək hüququna malikdir.

***Mətləb Salahov***

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib










***Martın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.***

İclasın müzakirəsinə YAP-ın 2025-ci il üzrə maliyyə hesabatı təqdim olunub.

Auditorlar Palatasının üzvü Elza Süleymanova çıxış edərək maliyyə hesabatının mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq mükəmməl səviyyədə hazırlandığını, partiyanın hesabat dövrü üçün maliyyə vəziyyətini və maliyyə fəaliyyətinin nəticələrini tam əks etdirdiyini vurğulayıb. Sonra 2025-ci il üzrə maliyyə hesabatı İdarə Heyətinin üzvləri tərəfindən təsdiq edilib.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılaraq müvafiq qərarlar qəbul olunub.

Yekunda YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov mütləq suverenliyini bərpa edərək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş Azərbaycanın “Konstitusiya və Suverenlik İli” olan 2025-ci ildə mühüm uğurlara imza atmaqla milli gücünü və beynəlxalq nüfuzunu daha da artırdığını vurğulayıb. O, qarşıda duran hədəflərə çatmaq üçün Yeni Azərbaycan Partiyasının da üzərinə böyük məsuliyyətin düşdüyünü bildirərək bu kontekstdə partiyanın Nizamnamə və Proqramından irəli gələn vəzifələrin mütəşəkkil qaydada yerinə yetirilməsinin önəmini qeyd edib.

Ölkəmizin “Şəhərsalma və Memarlıq İli”ndə də ardıcıl nailiyyətlər qazanacağına əminliyini ifadə edən YAP Sədrinin müavini iclas iştirakçılarını qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edərək onlara möhkəm cansağlığı və fəaliyyətlərində uğurlar arzulayıb.

# “Şəhərsalma və memarlıqda dövlətçilik prinsipləri”



*Martın 12-də “Şəhərsalma və Memarlıq İli” çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) və “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə “Şəhərsalma və memarlıqda dövlətçilik prinsipləri” mövzusunda tədbir keçirilib.*










Əvvəlcə “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin inzibati binasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq önünə gül dəstələri düzülüb.

Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vüsal Aslanov çıxış edərək bildirib ki, müasir şəhərin inkişafı yalnız yeni binaların tikilməsi ilə ölçülmür: “Şəhərin necə planlaşdırılması, nəqliyyat sisteminin necə qurulması və insanların gündəlik həyatının necə təşkil olunması bu inkişafın əsas göstəricilərindəndir. Bu baxımdan, şəhər nəqliyyatı, xüsusilə də metropoliten sistemi şəhərsalmanın ən vacib elementlərindən biridir. Metro təkcə sərnişin daşıyan nəqliyyat vasitəsi deyil. O, şəhərin müxtəlif hissələrini bir-biri ilə birləşdirən, şəhərin inkişaf istiqamətlərini formalaşdıran mühüm infrastrukturdur”.

Vüsal Aslanov qeyd edib ki, Bakı Metropoliteni hər gün yüz minlərlə sərnişinə xidmət göstərərək paytaxtın sosial və iqtisadi həyatının fasiləsizliyini təmin edir: “Eyni zamanda, Bakı metrosu paytaxtın memarlıq mühitinin də vacib hissəsidir. Bir çox stansiyalarımız milli memarlıq üslubunu və müasir həlləri birləşdirərək şəhərin simasına xüsusi rəng qatır. Bu da onu göstərir ki, metro yalnız nəqliyyat infrastrukturu deyil, həm də memarlıq və mədəni mühitin mühüm elementidir”.

Bakı metrosunun inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna rolunun olduğunu vurğulayan V.Aslanov əlavə edib ki, Ulu Öndər paytaxtın gələcək inkişafını nəzərə alaraq metropolitenin genişləndirilməsini strateji məsələ kimi qiymətləndirirdi: “Təsadüfi deyil ki, Ulu Öndər Bakı Metropolitenini Azərbaycan xalqının milli sərvəti adlandırırdı. Onun dövlətçilik yanaşması bu gün də ölkəmizdə həyata keçirilən böyük infrastruktur layihələrinin əsasını təşkil edir. Bu strateji xətt hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının diqqəti və dəstəyi nəticəsində Bakı Metropolitenində geniş modernləşmə işləri həyata keçirilir, yeni stansiyalar istifadəyə verilir, vaqon parkı yenilənir və infrastruktur müasirləşdirilir. Metro sisteminin inkişafı paytaxtın şəhərsalma siyasətinin əsas istiqamətlərindən biri olaraq daim diqqət mərkəzində saxlanılır. Paytaxtın nəqliyyat sistemində ən mühüm məsələlərdən biri hesab olunan “Yaşıl” və “Qırmızı” xətlərin ayrılması istiqamətində işlərə başlanılıb. Bu layihə metronun daşıma imkanlarının əhəmiyyətli dərəcədə artırılmasını, eləcə də sərnişinlərə dayanıqlı, komfortlu xidmət göstərilməsini təmin edəcək. Qarşıdakı 5 il ərzində metro sisteminin genişləndirilməsi də nəzərdə tutulur. Dövlət proqramına uyğun olaraq 10 yeni metro stansiyasının tikintisi, həmçinin hər bir xətt üzrə ayrıca xidmət göstərəcək müasir depoların yaradılması və 300 ədəd yeni vaqon parkının alınması planlaşdırılır. Eyni zamanda, şəhər nəqliyyatının inkişafı yalnız metro ilə məhdudlaşmır. Yaxın gələcəkdə Bakı küçələrində müasir tramvayların hərəkətə başlaması da nəzərdə tutulur. Bu layihə şəhərin nəqliyyat imkanlarını genişləndirməklə yanaşı, paytaxtımızın memarlıq və şəhər mühitinə də xüsusi gözəllik qatacaq. Bütün bunlar Bakı şəhərinin gələcək urban inkişafı üçün mühüm əhəmiyyət daşıyır”.

Vüsal Aslanov çıxışının sonunda Yeni Azərbaycan Partiyasının sıralarına yeni qoşulan Metropoliten əməkdaşlarını təbrik edib, onların dövlətçilik prinsiplərinə sadiq fəaliyyət göstərəcəklərinə əminliyini bildirib.

Çıxış edən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, müasir dünyada şəhərsalma siyasəti ölkələrin inkişaf strategiyasının önəmli komponentlərindən birini təşkil edir. Onun sözlərinə görə, qlobal urbanizasiya prosesi, sürətli texnoloji tərəqqi və günümüzün ekoloji çağırışları bu sahədə yeni yanaşmaların meydana çıxmasını şərtləndirir: “Ənənə ilə müasirliyin vəhdətini yaradaraq uğurlu şəhərsalma nümunəsi ortaya qoyan Azərbaycanda bu sahədə həyata keçirilən tədbirlər, o cümlədən genişmiqyaslı quruculuq işləri davamlı sosial-iqtisadi inkişaf xüsusunda mühüm əhəmiyyət daşıyır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin istər SSRİ dövründə, istərsə də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zaman şəhərsalma siyasəti milli-strateji prioritetlərdən biri kimi müəyyənləşdirilərək respublikanın bütün bölgələrində olduğu kimi, paytaxt Bakıda da dövrün çağırışlarına uyğun məqsədyönlü tədbirlər həyata keçirilmişdir ki, bu kontekstdə Bakı Metropoliteni şəbəkəsinin genişləndirilməsi də ayrıca qeyd edilməlidir. Heydər Əliyev siyasətini bütün istiqamətlərdə müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlər isə paytaxt Bakının modernləşməsinə və regionların sosial-iqtisadi inkişafına təkan verməklə şəhərsalma təcrübəsi baxımından mütərəqqi nümunə yaratmışdır”.

YAP Sədrinin müavini bildirib ki, Azərbaycanın ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasından sonra meydana çıxan sosial-iqtisadi və mədəni-humanitar çağırışlar fonunda şəhərsalma siyasətində yeni mərhələ başlanmışdır: “İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Proqramının mühüm tərkib hissəsi kimi innovativ yanaşmalar əsasında sosial inklüzivlik, ekoloji təhlükəsizlik, o cümlədən yaşıl infrastruktur quruculuğu əsas götürülməklə ”ağıllı şəhər” konsepsiyası həyata keçirilməkdədir ki, bu da dayanıqlı məskunlaşmanın, o cümlədən müasir standartlara uyğun yüksək keyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaradır”.

Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın çağdaş tələblərə adekvat şəhərsalma siyasəti ərazi bütövlüyünün qorunması, davamlı iqtisadi inkişafın təmini, sosial rifahın yüksəldilməsi, tarixi-mədəni irsin mühafizəsi kimi dövlətçilik prinsiplərinə söykənməklə milli gücümüzün artmasına xidmət göstərir: “Bütün bu nailiyyətlər və gələcəyə yönəlik aydın strateji baxış dünya miqyasında Azərbaycan təcrübəsinə böyük maraq göstərilməsini şərtləndirir. Təsadüfi deyil ki, BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə dair qərarın qəbulu Azərbaycanın dayanıqlı inkişaf siyasətinə, o cümlədən beynəlxalq müstəvidə şəhərsalma prosesinə töhfələrinə verilən yüksək qiymətin və etibarlı tərəfdaş imicinin bariz göstəricisidir. Şübhə yoxdur ki, müstəqil və qüdrətli Azərbaycan dövləti bu mötəbər tədbirə də uğurla ev sahibliyi edəcəkdir. Əminəm ki, hər zaman milli prioritetlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsində yüksək fəallığı ilə seçilən Yeni Azərbaycan Partiyasının çoxminli üzvləri, o cümlədən Bakı Metropoliteninin əməkdaşları da bu prosesdə əllərindən gələni əsirgəməyəcəklər”.

**Ardı Səh. 5**

# “Şəhərsalma və memarlıqda dövlətçilik prinsipləri”

Əvvəli-Səh-4

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, bu gün müasir şəhərsalmanı metropolitensiz təsəvvür etmək mümkün deyil: “Sərnişin daşınmasında kütləviliyi ilə əvəzsiz rola malik, insanların sərbəst, sürətli və təhlükəsiz hərəkətini təmin edən, ekoloji cəhətdən ən zərərsiz olan nəqliyyat növü kimi Bakı Metropoliteni öz infrastrukturunu inkişaf etdirməklə, innovativ yenilikləri daim tətbiq etməklə çağdaş dövrün yeni tələblərinə uyğun xalqa xidmət etməkdədir. Böyük Zəfərimizin əbədiləşdirilməsi baxımından ən önəmli rəmzlərdən biri olan ”8 Noyabr” metrostansiyası, düşünürəm ki, bütün şəhidlərimizin xatirəsini yaşadır. 30 şəhid ailəsi üzvünün, 350-ə yaxın müharibə iştirakçısının çalışdığı Bakı Metropoliteninin əməkdaşlarına bu xatirənin yaşadılmasına, doğma Bakımızın inkişafına verdikləri töhfələrə görə minnətdarlığımızı bildiririk. Fürsətdən istifadə edərək hər birinizi qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edir, möhkəm cansağlığı, uzun ömür və Prezident İlham Əliyevin ətrafında sıx birləşərək daha güclü Azərbaycan naminə davam etdirdiyiniz şərəfli fəaliyyətinizdə yeni uğurlar arzulayıram”.





“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssisi, Vətən müharibəsi qəhrəmanı, şəhid polkovnik-leytenant Əfqan Abdurahmanovun qızı Hilalə Əfqan Ulu Öndər Heydər Əliyevin xalqımıza miras qoyduğu, Vətənə bağlı əqidəli insanları sıralarında birləşdirən Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan böyük qürur duyduğunu söyləyib: “Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə dediyi “Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır” fikri bu gün də öz aktuallığını itirməyib. Məqsədimiz Ulu Öndərin əmanəti olan ölkəmizi qorumaq, onu hər zaman güclü görmək və bunun üçün çalışmaqdır”.

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsi zamanı misilsiz qəhrəmanlıq göstərən Azərbaycan gəncliyi bundan sonra elm, təhsil, mədəniyyət, idman, ictimai-siyasi və innovasiya sahələrində də ölkəmizi gələcəyə inamla daşımaq potensialına malikdir. “Qarşıda bizi böyük quruculuq işləri gözləyir. Amalımız ölkəmizin hər bir sahədə inkişafı, çiçəklənməsi naminə var qüvvəmizlə çalışmaq, Vətənə xidmət etməkdir” , - deyə H.Əfqan əlavə edib.

Çıxış edən “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin qatar maşinisti, Vətən müharibəsi iştirakçısı Səlim Rüstəmov isə deyib: “Tariximizin ən şanlı səhifələrinin yazıldığı 2020-ci ildə ərazi bütövlüyümüzün, sərhədlərimizin qorunması Vətən qarşısında əsas borcumuz olub. Cəmi 44 gün davam edən bir şanlı yürüşün iştirakçısı olmaq qürurvericidir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun xalqımıza bəxş etdiyi bu qürur, əminəm ki, əbədi olacaq. Çünki bu Vətən onun uğrunda canını qurban vermiş şəhidlərin ali məqamını həmişə uca tutaraq sabaha inamla addımlayacaqdır”.

S.Rüstəmov təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyasının Azərbaycanın gələcəyi naminə əzmlə çalışdığını vurğulayaraq ümumxalq etimadı qazanmış nüfuzlu bir partiyanın üzvü olmaqdan böyük fəxarət duyduğunu söyləyib.

Sonra YAP sıralarına yeni qəbul olunan bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Hikmət Hacıyev: “Çoxtərəfli əməkdaşlıq kiçik və orta dövlətlər üçün ədalətli platformadır”




***“Bu gün xüsusi olaraq çoxtərəfli əməkdaşlığın dəstəklənməsi məsələsini vurğulamaq istəyirəm. Mən çox güclü şəkildə multilaterallığın tərəfdarıyam. Çünki çoxtərəfli əməkdaşlıq kiçik və orta ölkələr üçün ədaləti təmin edir, onlara beynəlxalq platformalarda söz haqqı verir və qlobal sistemin tənzimlənməsində iştirak etməyə imkan yaradır”.***

SİA xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev XIII Qlobal Bakı Forumda çıxışı zamanı səsləndirib. Hikmət Hacıyev bildirib ki, multilaterallıqla bağlı müzakirələrdə müxtəlif yanaşmalar da nəzərə alınmalıdır: “Çox tərəfli əməkdaşlığın böhranından danışarkən onun müxtəlif istiqamətlərini də qiymətləndirməliyik. BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq institutlar qlobal təhlükəsizlik məsələlərində bəzən məhdud imkanlara malik olur və bu da konsensus çatışmazlığından irəli gəlir”. O qeyd edib ki, regional təşəbbüslər və beynəlxalq platformalar müəyyən hallarda effektiv nəticələr verə bilir: “Məsələn, Qoşulmama Hərəkatı ilə bağlı əvvəllər müxtəlif tənqidlər səsləndirilirdi. Lakin 2019–2022-ci illərdə bu platforma regional və çoxölçülü əməkdaşlıq üçün işlək mexanizm olduğunu nümayiş etdirdi. Pandemiya və iqlim diplomatiyası sahəsində də müəyyən irəliləyişlər əldə olundu”.

Hikmət Hacıyev vurğulayıb ki, multilateralllığın əsas problemlərindən biri siyasi iradənin və institusional uyğunlaşmanın çatışmazlığıdır: “Bəzən beynəlxalq institutlar əməkdaşlıq etmək əvəzinə bir-birini əvəz etməyə çalışır və bu da effektivliyin azalmasına səbəb olur. Ona görə də çox tərəfli əməkdaşlığın daha çevik strukturlar və güclü siyasi iradə ilə dəstəklənməsi vacibdir”.

***Günel Fərzəliyeva***



# Kişilər, hazırlaşın: duz haqqı verəcəksiniz

**Mətanət Məmmədova**

***11 ayın sultanı olan Ramazan ona görə özünəməxsus, fərqli bir aydır ki, başdan-başa insanlığa, saflığa, təmizliyə, ədalətə hesablanıb. İslam dəyərlərini özündə ehtiva edən bu ay o qədər müqəddəs amallar üzərində formalaşıb ki, insanlığa aid olan heç nə unudulmayıb. Elə Osmanlı dövründən qalan, hələ də bir çox İslam ölkələrində yaşadılan “duz haqqı” ənənəsi də zərifliyi, ədaləti ilə Ramazan ayının mənəvi atmosferini formalaşdırır.***

Nədir duz haqqı? Duz haqqı Ramazanın bir nəzakət jestidir. Xanımlar bir ay boyunca oruclu olduğu halda həyat yoldaşına, eləcə də ailə üzvlərinə, hətta evə gələn qonaqlara yemək hazırlayır. Yeməklər nə qədər müxtəlif, çeşidli olsa da, onları ləzzətə gətirən məhz duzdur. Bir ay boyunca yeməkləri duzunu yoxlamadan hazırlamaq isə həqiqətən, böyük məsuliyyət tələb edir. Bax bu məsuliyyəti ay boyunca hər gün bir dəfə hiss edən qadınların haqqıdır duz haqqı. Duz haqqının mənası “Biz sənin yeməyinin duzunu daddıq, zəhmətinin haqqını alan bizik” fikrindən qaynaqlanan, qadının fədakarlığına hörmət və minnətdarlıq ifadəsidir.

Odur ki, Ramazan boyu oruc tutan və orucunu açmadan yemək hazırlayan şəxsin etdiyi bu yorucu iş bayram səhəri kiçik bir hədiyyə ilə mükafatlandırılır. Vaxtilə bu məqsədlə ənənəvi olaraq qızıl və ya gümüş zinət əşyaları verilərdi. Şərt deyil ki, hədiyyə yalnız qızıl və gümüş zinət əşyaları olsun, imkan daxilində istənilən hədiyyə, bəlkə də bir neçə cümlədən ibarət xoş sözlər eyni mənəvi dəyəri daşıyır. Məqsəd dini məcburiyyəti olmayan bu ənənə ilə ailə bağlarını möhkəmləndirmək, unudulmaq ərəfəsində olan, lakin yenidən xatırlanan nəfis bir mədəni irsi qorumaq, saxlamaqdır. Bununla həmçinin Ramazanın nə qədər ədalətli, fəzilətli, hər kəsin düşünüldüyü, xatırlandığı, yada salındığı ay olduğunu diqqətə çatdırmaqdır.

Duz haqqının mənşəyi çox maraqlıdır. Tamamilə türk dünyasına, müsəlmanlara məxsus olan incə bir düşüncənin məhsuludur. Duzçörək kəsmək türk dünyasında müqəddəs amillərdən biridir. Yəni kimsə kimin evində bir tikə çörək kəsərsə, onlar arasında duz-çörək haqqı yaranmış olur. Osmanlı dövründə Osmanlı və türk mədəniyyətində qonaqlara verilən yemək və çörək müqəddəs hesab olunurdu. Kimisə yedizdirən və ya ona xidmət edən şəxs o insan üzərində mənəvi haqq qazanmış sayılırdı. “Duzun əvəzini ödəmək” anlayışı vəfasızlıq və nankorluqdan çəkinməyi tövsiyə edir. Bir sözlə, ”duzun əvəzini ödəmək” güclü bir mədəni ifadədir, yəni kimsə edilən yaxşılıq və ya səy unudulmamalıdır.

Deməli, İslamın bu incə düşüncələrinə sayğı ilə yanaşmaq hər bir müsəlmanın borcudur. Beləliklə, Ramazan ayının bitməsinə sayılı günlər qaldığı bir dövrdə xüsusilə kişilər duz haqqı barədə düşünməli, hədiyyələrini alıb hazır etməlidirlər. Çünki onları Ramazan bayramında həyat yoldaşlarını, qızlarını, gəlinlərini mükafatlandırmaq gözləyir. Nə qədər incə düşünülmüş bir “qanundur”, deyilmi? Məhz elə bu fəzilətləri ilə Ramazan 11 ayın sultanı ola bilib.

# Azərbaycan poeziyasının böyük şairi



## Dövlət başçısının Sərəncamı əsasında Xalq şairi Səməd Vurğunun 120 illiyi qeyd ediləcək

***Azərbaycanın ədəbi fikir salnaməsində yeri olan Səməd Vurğun coxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şair nəğməkarı olduğu Odlar diyarını alovlu məhəbbətlə tərənnüm etmişdir. Onun dillər əzbərinə çevrilmiş "Azərbaycan" şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Onu Azərbaycan xalqına sevdirən şeirlərindəki sadəlik, səmimilik, xalq dilinə yaxınlıq, lakin bütün bunlarla yanaşı, dərin mənalılıqdır.***

Şairin ədəbiyyatımızın qızıl fondunda yer almış əsərləri bu gün də poeziyamızın qiymətli inciləri sırasındadır. Səməd Vurğun cəmi 50 il yaşamasına baxmayaraq, onun ədəbi irsi özündən sonrakı Azərbaycan poeziyasına böyük təsir göstərib. 2026-cı ildə iyirminci əsr Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri, Xalq şairi, tanınmış dramaturq və ictimai xadim, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Səməd Vurğunun 120 illiyi tamam olur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb.

Sənəddə qeyd olunduğu kimi, böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir. Səməd Vurğunun milli poeziyanı yüksəklərə qaldıran romantik və fəlsəfi məzmunlu bənzərsiz lirikası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir. Keçmişə ehtiram və gələcəyə inam aşılayan Vurğun dramaturgiyası Azərbaycanın teatr sənəti tarixində xüsusi səhifə təşkil edir. Səməd Vurğunun novator keyfiyyətlərlə zəngin bədii irsi bir məktəb kimi müasir Azərbaycan poeziyasına güclü təsir göstərmişdir və bu gün də gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişməsində əhəmiyyətli rol oynayır.

Sərancama əsasən, Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan görkəmli şair Səməd Vurğunun 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və aidiyyəti qurumlarla birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Səməd Vurğunun 120 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcəkdir.

Səməd Yusif oğlu Vəkilov 1906-cı ildə Qazax qəzasının Yuxarı Salahlı kəndində anadan olub. Atası gözəl saz ifaçısı kimi tanınıb. Uşaqlıq illərini doğma kəndində keçirən Səməd ibtidai təhsilini rus-tatar məktəbində alıb. Onun 6 yaşı olarkən anası Məhbub xanım vəfat edib. Səməd atası Yusif ağanın və ana nənəsi Aişə xanımın himayəsində böyüyüb. Şairin ana babası Mehdixan ağa Köhənsal təxəllüsü ilə tanınan el şairi idi. Şairin ana nənəsi Aişə xanım Molla Pənah Vaqifin nəslindən idi.1918-ci ildə görkəmli ədəbiyyatşünas və maarifçi Firudin bəy Köçərli Qazaxda Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsini təşkil edib. Bu məktəbə qəbul olunan kənd uşaqları arasında Səməd və Mehdixan Vəkilov qardaşları da var idi. Mehdixan Vəkilov Səmədin böyük və yeganə qardaşı olub. Qardaşı Hacıməmməd və bacısı Nabat isə uşaq yaşlarında vəfat edib. Səməd Vurğun 1924-cü ildə seminariyanı bitirdikdən sonra Qazax, Quba və Gəncə məktəblərində Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edib. Səməd Vurğun gəncliyində hər şeylə maraqlanan, həssas, bununla yanaşı, çox qətiyyətli, möhkəm iradəli, hazırcavab olub. Hələ təhsil illərində Vaqif, Vidadi, Zakir və Sabir yaradıcılığı ilə yanaşı, Puşkin və Lermontovun, türk şairlərindən Tofiq Fikrət, Namiq Kamal, Mehmed Eminin əsərləri ilə də tanış olub. 1930-cu illərdə o, Aleksandr Puşkinin "Yevgeni Onegin", Maksim Qorkinin "Qız və ölüm", Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan", Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərlərini Azərbaycan dilinə tərcümə edib. Şairin ilk çap əsəri olan "Cavanlara xitab" şeiri 1924-cü ildə Tiflisdə çıxan "Yeni fikir" qəzetində dərc olunub. 1930-cu illərdə şairin "Könül dəftəri" və "Şeirlər" kitabları çapdan çıxıb. 1934-cü ildə yazdığı "Azərbaycan" şeiri ədəbiyyatımızın incilərindən hesab olunur. 1937-ci ildə "Vaqif", sonrakı illərdə "Xanlar", "Fərhad və Şirin", "İnsan" dramlarını, "Zəncinin arzuları", "Muğan", "Aygün" və "Zamanın bayraqdarı" poemalarını qələmə alıb. 1954-cü ildə Səməd Vurğun Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsinə təyin edilib. O, müxtəlif illərdə SSRİ-nin ən yüksək orden və medalları ilə təltif edilib. 1956-cı ilin martında "Azərbaycanın Xalq Şairi" fəxri adı təsis edilib və ilk dəfə bu ada Səməd Vurğun layiq görülüb. Şair 1956-cı il mayın 27-də dünyasını dəyişib və Fəxri xiyabanda dəfn edilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dünyada su istifadəsinə görə Azərbaycan hansı sırada qərarlaşıb?

***Dünyada su ehtiyatlarının istifadəsi ölkələr arasında fərqli səviyyədədir və bu fərq əsasən əhalinin sayı, iqtisadi inkişaf səviyyəsi, sənayeləşmə, kənd təsərrüfatının miqyası və iqlim şəraiti ilə bağlıdır. SİA mövzu ilə bağlı araşdırma edib: Statistik məlumatlara görə, adambaşına düşən su istehlakı baxımından bəzi ölkələr digərlərindən xeyli yüksək göstəriciyə malikdir. Bu ölkələrdə su yalnız məişət məqsədləri üçün deyil, həm də kənd təsərrüfatı, sənaye istehsalı, enerji və xidmət sektorlarında geniş şəkildə istifadə olunur.***

### Adambaşına su istehlakına görə dünyanın ən yüksək göstəricisi hansı ölkənin payına düşür?

Adambaşına su istehlakına görə dünyanın ən yüksək göstəricilərindən biri Birləşmiş Ərəb Əmirlikləri-də qeydə alınır. Bu ölkədə bir nəfərə düşən gündəlik su istifadəsi minlərlə litr təşkil edir. Bunun əsas səbəbi isti və quraq iqlim şəraiti, böyük turizm infrastrukturu, hotellər, hovuzlar, yaşıllıq sahələrinin süni suvarılması və yüksək həyat səviyyəsidir. Ölkədə təbii şirin su ehtiyatları az olduğuna görə suyun böyük hissəsi dəniz suyunun duzsuzlaşdırılması yolu ilə əldə edilir. Adambaşına yüksək su istifadəsi olan ölkələrdən biri də ABŞ-dır. Burada suyun böyük hissəsi kənd təsərrüfatında, sənaye müəssisələrində və enerji istehsalında istifadə olunur. ABŞ-da geniş suvarma sistemləri, böyük şəhər infrastrukturu, avtomobil yuma xidmətləri və məişətdə suyun çox istifadəsi bu göstəricinin yüksək olmasına səbəb olur. Eyni zamanda ölkədə su ehtiyatlarının böyük olması insanların suya daha sərbəst yanaşmasına gətirib çıxarır.

### Azərbaycan adambaşına su istifadəsinə görə hansı yerdə qərarlaşıb?

Azərbaycan adambaşına düşən su istifadəsinə görə dünyada ən çox su işlədən ölkələrdən biridir. Bu barədə məlumat "world meters" qlobal statistika saytında yer alıb.



Azərbaycanda illik su istifadəsi 12.8 milyard kubmetr təşkil edir. Məlumata görə, adambaşına gündəlik 3512 litr su istifadə edilir. Maraqlıdır ki, platformada Azərbaycan əhalisinin sayına nəzər saldıqda rəqəmlərin əvvəlki illərə (2017-2018) aid olduğu görünür.

Azərbaycan adambaşına su istifadəsinə görə yüksək yerlərdə olsa da, ümumi su istifadəsinə görə dünya liderlərindən deyil. Ölkəmiz dünyada adambaşına düşən su istifadəsinə görə, 181 ölkə arasında 40-cı yerdə qərarlaşıb.

Su resursları və ekoloji idarəetmə sahəsində beynəlxalq mütəxəssis, BMT-nin İnkişaf Proqramının su məsələləri üzrə eksperti, Misirin Ətraf Mühit Agentliyinin sədrinin birinci müavini Əhməd Əlsəud su çatışmazlığı ilə bağlı beynəlxalq və regional təsirləri, o cümlədən Azərbaycandakı mövcud durumu qiymətləndirib: "Bu gün dünyanın bir çox regionlarında quraqlıq müşahidə olunur.

İqlim dəyişikliyi indi bir reallıqdır. Bunu biz hamımız hiss edirik, təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində insanlar quraqlıq və su çatışmazlığından əziyyət çəkir. İqlim dəyişikliyinin təsirləri ilə bağlı proqnozlar onu göstərir ki, su ehtiyatlarının azalması bundan sonra da davam edəcəkdir. Ölkələr bunun öhdəsindən gəlmək üçün adaptasiya planları hazırlamalıdırlar.

Azərbaycandakı mövcud su problemlərindən danışırıqsa, şübhəsiz bu, təkcə kənd təsərrüfatı və suvarma ilə bağlı deyildir. Bu, sudan istifadə edən bütün sahələrə aid edilməlidir. Bu vəzifə hamının üzərinə düşür. Bu vəziyyətdən çıxış yolu su ehtiyatlarının idarə olunması ilə məşğul olan bütün maraqlı tərəflərin üzərindədir. Burada təkcə dövlət qurumlarını deyil, həm sizi, həm də məni və cəmiyyətin bütün üzvlərini nəzərdə tuturam.

Bu quraqlığın qarşısının alınmasının məsuliyyətini hamımız paylaşmalıyıq. Bu vəziyyətdə hər birimizin xüsusi rolu var. Hökumətin rolu bütün sektorlarda su itkisini azaltmaq, bələdiyyə şəbəkəsində, həmçinin suvarma kanallarında suyun paylanmasını yaxşılaşdırmaq üçün planlar hazırlamaq və investisiya layihələri həyata keçirməkdir. Hökumət həmçinin müasir suvarma, sudan təkrar istifadə və digər suya qənaət edən ağıllı texnologiyaların istifadəsini təşviq etməlidir.

Suyun səmərəli istifadəsi üçün iqtisadi stimullar barədə düşünməyə başlamalıyıq ki, müasir suvarma sistemləri quraşdıran fermerlərə subsidiya verə bilək. Cəmiyyətin digər üzvlərinə gəldikdə, gündəlik fəaliyyətimizdə suyun rasional istifadəsi ilə quraqlıqdan çıxış yolu üçün bir məsuliyyətimiz var. Kranı açıq qoymayın. Evdə bir sızma varsa, mümkün qədər tez bir zamanda aradan qaldırın. Küçələrdə sızma olduğunu görsəniz, bildirin. Hər damcı suyun vacib olduğunu bilməliyik"

### Afrika qitəsi su istehlakına görə hansı sıradadır?

Afrika qitəsində yerləşən Botsvana da yüksək su istehlakı olan ölkələrdən biridir. Burada su əsasən kənd təsərrüfatında və heyvandarlıqda istifadə olunur. Quraq iqlim şəraiti səbəbindən suvarma sistemləri geniş tətbiq edilir və bu da adambaşına düşən su istifadəsini artırır.

### Cənubi Amerikada yerləşən Braziliyada su sərfiyyatı daha çox hansı sahəyə istifadə olunur?

Cənubi Amerikada yerləşən Braziliya isə böyük kənd təsərrüfatı sektoru və hidroenerji istehsalı səbəbindən suyun ən çox istifadə olunduğu ölkələrdən biridir. Braziliyada geniş əkin sahələrinin suvarılması, həmçinin elektrik enerjisinin böyük hissəsinin hidroelektrik stansiyalarında istehsal olunması su istehlakını artıran əsas amillərdəndir. Avrasiya məkanında yerləşən Rusiya da yüksək su istifadəsi ilə seçilir. Ölkədə metallurgiya, kimya sənayesi, enerji istehsalı və digər ağır sənaye sahələri böyük miqdarda su tələb edir. Bundan əlavə, böyük sənaye şəhərləri və geniş istehsal infrastrukturu suya tələbatı artırır.

Qlobal miqyasda istifadə olunan suyun təxminən 70 faizi kənd təsərrüfatına, 20 faizi sənaye sahələrinə, 10 faizi isə məişət ehtiyaclarına sərf olunur. Bu fakt göstərir ki, adambaşına su istehlakının yüksək olması təkcə insanların gündəlik məişət fəaliyyəti ilə deyil, həm də ölkənin iqtisadi strukturu ilə birbaşa əlaqəlidir. Kənd təsərrüfatının geniş olduğu, sənaye istehsalının inkişaf etdiyi və həyat səviyyəsinin yüksək olduğu ölkələrdə suya olan tələbat daha çox olur. Dünyada adambaşına ən çox su işlədən ölkələr əsasən iqtisadi cəhətdən inkişaf etmiş və ya geniş suvarma kənd təsərrüfatına malik dövlətlərdir. Bu ölkələrdə su ehtiyatlarının idarə olunması və qənaətli istifadəsi gələcəkdə qlobal su təhlükəsizliyinin təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır.

***Günay Hacıyeva***

ARAŞDIRMA



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# Bağırsaq xərçəngi "gəncləşir"

**Mart ayı bütün dünyada "Kolorektal Xərçəng Maarifləndirmə Ayı" kimi tanınır. Kolorektal xərçəng bağırsaq xərçəngi deməkdir. Daha dəqiq desək, o iki hissəni əhatə edir: Colon – qalın bağırsaq, rectum – düz bağırsaq. Kolorektal xərçəng hər iki cinsdə ən çox yayılmış üçüncü xərçəng növüdür və hər il dünyada təxminən 2 milyon insana bu diaqnoz qoyulur.**

1990-2013-cü illər arasında 50 yaşdan aşağı insanlarda kolorektal xərçəngin yayılması ikiqat artıb və artmaqda davam edir. Daha gənc yaşlarda kolorektal xərçəng diaqnozlarının artması dünyada təhlükə hesab edili. Gənc əhali arasında kolorektal xərçəng üçün müntəzəm müayinənin olmaması, nəticədə gec diaqnoz qoyulması və gənc fərdlərdə müşahidə olunan fərqli şişlərin yalnış diqnozu və müalicəsi buna səbəb ola bilər.

Kolorektal xərçəng çox vaxt əvvəlcə "Colon polyp" (bağırsaq polipi) kimi başlayır və illər ərzində xərçəngə çevrilə bilər. Bu xəstəliyə yoluxmamaq üçün risk faktorlarını bilmək lazımdır. Dəyişdirilə bilən risk faktorlarına qırmızı və emal olunmuş ətin həddindən artıq istehlakı, az lifli pəhriz, piylənmə, qeyri-kafi fiziki fəaliyyət və alkoqol və tütün istifadəsi daxildir, dəyişdirilə bilməyən risk faktorlarına isə yaş, genetik xəstəliklər, ailə tarixçəsi, iltihabi bağırsaq xəstəliyinin (xoralı kolit və Kron xəstəliyi) olması və qarın boşluğuna əvvəllər radiasiya məruz qalması daxildir.

Bu baxımdan, müasir həyat tərzinin yaratdığı qidalanma vərdişlərindəki dəyişikliklər və qeyri-kafi fiziki fəaliyyət yoğun bağırsaq xərçəngi riskini artıran vacib amillər hesab olunur. Bu əlamətlər olan insanlarda kolonoskopik müayinə vacibdir. Cəmiyyətdə kolonoskopiya ilə bağlı bəzi narahatlıqlar olsa da, prosedur adətən sedasiya altında aparılır və ağrısız başa çatır. Bağırsaqların təmizlənməsi üçün hazırlıq prosesi aparılır və prosedurdan əvvəl xüsusi bir pəhriz saxlanılır. Prosedurdan sonra xəstələr qısa bir müşahidə müddətindən sonra tez bir zamanda gündəlik həyatlarına qayıda bilərlər.

Yoğun bağırsaq xərçəngi müayinəsinin əsas məqsədi xərçəngönü diaqnozu qoya bilmək və ya mövcud xərçəngi tam müalicə olunmaq üçün kifayət qədər erkən mərhələlərdə müəyyən etməkdir. Bu baxımdan, müayinə proqramlarına, xüsusən də kolonoskopiya və nəcisdə gizli qan testlərinə riayət etmək bu xəstəliyə tutulmamaq, əgər artıq xəstəyiksə daha tez sağalmaq üçün çox vacibdir.

Kolorektal xərçəngdən ölüm hallarını azaltmağın ən təsirli yolu erkən aşkarlamadır. Buna görə də, xüsusilə kolonoskopiya müayinələri ilə bağlı müayinə proqramlarına müntəzəm riayət etmək çox vacibdir. Müayinə xərçəngönü poliplərin xərçəngə çevrilməzdən əvvəl aşkarlanmasına və çıxarılmasına, yaxud xərçəngin daha erkən mərhələlərdə aşkarlanmasına imkan verir.

Bağırsaq sağlamlığının qorunması həm gündəlik həyatımız, həm də kolorektal xərçəngdən qorunmaq üçün vacibdir. Əsas yanaşma sağlam həyat tərzi vərdişlərini mənimsəmək və müntəzəm müayinələri laqeyd etməməkdir. Tərəvəz, meyvə, paxlalı və yağlı toxum kimi liflə zəngin qidalanma, emal olunmuş və qırmızı ət istehlakını məhdudlaşdırmaq, müntəzəm fiziki fəaliyyətlə məşğul olmaq, sağlam çəkini qorumaq, kifayət qədər su içmək, siqaret çəkməkdən və həddindən artıq spirtli içki qəbulundan çəkinmək riskin azaldılmasında mühüm rol oynayır. Bundan əlavə, 45 yaşından (və ya risk qrupundakılar üçün daha tez) başlayaraq müntəzəm müayinə proqramlarında iştirak etmək erkən aşkarlama sayəsində həyat qurtara bilər.

***Lalə Mehralı***

# Hindistandan siqhlərə qarşı QƏTLİAM

***Bugunkü, reallıq ondan ibarətdir ki, beynəlxalq aləm qarışıq vəziyyətindədir. Elə bir böhranlı durum ki, hər an üçüncü dünya müharibəsinin baş verə biləcəyi haqqında proqnozlar irəli sürülür, şərhlər verilir. Xüsusilə də, Yaxın Şərqdə ABŞ ilə İsrailin fars-molla rejiminə qarşı başlatdıqları geniş miqyaslı hərbi əməliyyatlar dünya üçün arzuolunmaz nəticələrə gətirib çıxarır.***



Vəziyyətin gərginləşməsi və müharibə zonasının genişlənə biləcəyi ehtimal olunur. Müharibənin uzanması iqtisadi- ticari böhranın dərinləşməsi ilə yanaşı dinc insanlarında kütləvi şəkildə həyatlarını itirmələrinə, yaşayış məskənlərinin dağıdılmasına gətirib çıxarır. Faciəvi hal ondan ibarətdir ki, insanların öldürülməsi yalnız dövlərin bir-birinə olan hücumları səbəbindən baş vermir, həm də dövlətlər öz daxillərində qatı diktatura rejimi qurmaları səbəbindən yüzlərlə vətəndaşını fundamental hüquqlardan məhrum edirlər. Əksər hallada isə hüquqları uğrunda aparılan mübarizədə insanlar həyatlarını itirirlər. Çünki anomal idarəetmə üsuluna malik dövlətlər insanların küçələrə çıxmasını qəbul etmir və onlara qarşı zor tətbiq edirlər. Nəticədə onlarla insan öldürülür və ya yaralanırlar. Misal olaraq, 2018-ci ilin noyabrında "Sarı jiletlilər" adlandırılan aksiya iştirakçılarına qarşı Fransa hakimiyyətinin həyata keçirdiyi qətliamları və həbsləri göstərmək olar. Rəsmi Parisin qəddar siyasəti nəticəsində 38 nəfər aksiya iştirakçısı öldürülmüş 12 min 45 nəfər isə həbs edilərək zindalara atılmışlar. Eyni acınacaqlı vəziyyət Almaniyada, Niderlanda, Kandada və digər Avropa ölkələrində də baş vermişdi. Bu yöndə Hindistanda vəziyyətin daha acınacaqlı olduğu müşahidə olunur.

## Hindistan fəallara qarşı repressiyalarını genişləndirir

Məlumdur ki, Hindistanda qatı diktatura mövcuddur. Modi hökuməti bunun səbəbini ölkənin çox millətli olması ilə əlaqələndirir. Qeyd edirlər ki, qanunlar və cəzalar sərt olmasa sayları 1, 5 milyard olan əhalini idarə etmək mümkün olmaz. Hindistan Konstitusiyasına görə ölkədə 22 rəsmi dövlət dili mövcuddur. Yəni ölkənin əsa dili "hind" dili deyil. Lakin hindlilər digər millətlərlə müqayisədə böyük üstünlüklərə malikdirlər. Dövlət aparatında əsasən hindlilər təmsil olunurlar. Hindlilər asayiş keşikçilərinin gözü qarşısında digər millətləri təhqir edir, alçatmağa çalışırlar. Bu zaman polis özünü kar və kor kimi aparır. Milli ayrı seçkilik əksər hallarda qarşıdurmalara gətirib çıxarır. Əsasən müsəlmanlar, eləcə də siqhlər daha mübariz və qətiyyətlidirlər. Onlar dini və milli ayrı seçkiliyə qarşı mübarizə də canlarından keçməkdən belə çəkinmirlər. Sayları 120 milyon olan siqhlər əsasən Hindistanın Pəncab əyalətində yaşayırlar. Hindistan Böyük Britaniya koloniyasından çıxaraq müstəqil olduqdan sonra siqhlər mərkəzi hökumətdən muxtariyyət tələb edərək daha yaxşı sosial-iqtisadi sistem qurmaq istəyirdilər. Lakin hakimiyyət onların istəklərini qətiyyətlə rədd edir. Bu səbəbdən də tez-tez siqhlərlə hakimiyyət arasında qarşıdurma yaranır. 1984-cü ildə isə hakimiyyət siqhlərə qarşı soyqırımına siyasəti həyata keçirdi. Həmin ilin noyabrında Hindistanın böyük şəhərlərdə siqhlərə qarşı hücumlar başladı. Polis nəinki bunun qarşısını almadı əksinə, siqhlərə hücum edənlərə bıçaq, ağac və digər kəsici alətlər payladı. Ölkənin parlament üzvü, milyarder Sadcan Kumar və həmkarlar ittifaqının rəhbəri Lalit Maken iğtişaşları rəsmi qaydada maliyyələşdirirdilər. Siqhlərə qarşı amansız qətliamlara törətdildikdən sonra Sadcan Kumar və Lalit Maken utanıb, çəkinmədən həyasızcasına bildirdilər ki, onlar ölkənin Baş naziri Raciv Qandinin (Siqhlər tərəfindən planlaşdırılan və siqh can güdəni tərəfindən öldrülən baş nazir İndira Qandinin oğlu) tapşırıqlarını yerinə yetirirdilər.

Bir gün ərzində 5 min adamın qətlə yetirilməsini kifayət hesab etməyən hökumət sonrakı günlərdə də soyqırımının davam etməsi üçün çağırış edirdi. Törədilmiş kütləvi qətliam nəticəsində 40 minə yaxın siqh öldürülmüş, 200 minə yaxın siqh isə bu və digər forma da yaraalanmışdır. "Siqhlər ədalət uğrunda" Beynəlxalq Qeyri-Hökumət təşkilatı 2014-cü ildə "Siqhlərin soyqırımı" adlı hesabat hazırlayaraq BMT-nin Baş katibinə təqdim etdilər. Təsdiq olunan faktlar üzrə 35 min siqhin qətlə yetirildiyini sübut etdilər. Araşdırmalar zamanı 18 ştatda siqhlərin kütləvi şəkildə dəfn olunduqları məzarlar aşkar edilib. Siqhlər davamlı olaraq Hindistan hüquq –mühafizə orqanları tərəfindən təqib olunurlar. İnsanlar zorakılıqdan qaçaraq Kanada, ABŞ, Böyük Britaniya və Avstraliya kimi ölkələrdə məskunlaşmağa məcbur olurlar. Qəddar Modi hökuməti bu ölkələrdə də siqhləri sakit yaşamağa imkan vermir, onları müxtəlif ölkələrdə təqib edib, öldürürlər.

## Günahkarların cəzalandırılması tələb olunur

Dünya siqhlərə qarşı törədilən soyqırımı qətiyyətlə pisləyir. Xüsusilə də, Azərbaycanın vətəndaş cəmiyyəti siqhlərin qətliama məruz qalmasını sərt şəkil də pisləyib və günahkarların cəzalandırılmasını tələb edib. Yanvarın 16-da Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə Bakıda "Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar" adlı beynəlxalq konfrans təşkil etmişdir. Tədbirdə Hindistanda siqhlərə və digər dini azlıqlara qarşı mövcud diskriminasiya və zorakılıq halları müzakirə olunmuş, beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində mübarizənin davam edəcəyi bildirilmiş və birgə bəyanatlarla yekunlaşmışdır. Hindistanda təqiblərə məruz qalan zikh icmasının problemlərinə həsr olunmuş beynəlxalq konfransdan sonra tədbirin təşkilatçısı Bakı Təşəbbüs Qrupunun (BTQ) rəqəmsal sistemləri kiberhücumlara məruz qalıb. Tədbirdən sonra həmçinin Kanada Zinkh Federasiyasının (Sikh Federation Canada) sədri Bual Moninder Singh və onun ailəsi ölümlə təhdid edilib. Bu barə də Bakı Təşəbbüs Qrupu məlumat yayıb. Məlumatda bildirilib ki, qlobal diaspor şəbəkələri və rəqəmsal texnologiyalar fonunda bu cür repressiya mexanizmləri müxtəlif ölkələrdə paralel şəkildə həyata keçirilir. Buna görə də məsələ yalnız bir dövlətin daxili siyasəti deyil, transmilli repressiya və insan hüquqlarının qorunması ilə bağlı beynəlxalq problem kimi qiymətləndirilməlidir: "Bütün bu təhdidləri ciddi nəzərə alan dünyadakı məhşur zikh təşkilatları birgə addımlar atılması istiqamətində müzakirələr aparırlar. Hindistan hökuməti tərəfindən həyata keçirilən təqiblərin dünya ictimaiyyətinə çatdırılması və qınanması ilkin prioritetlərdəndir. Eyni zamanda kiber hücumlara qarşı dayanaqlı müdafiə imkanlarının gücləndirilməsi aktual məsələyə çevrilib. Dünya ictimaiyyətinin diqqətinin daha çox müharibə və münaqişələrə yönəlməsidən istifadə edən Hindistan hökuməti müxtəlif ölkələrdə zikh fəallara qarşı daha sərt təqiblər həyata keçirməkdədir. "Son illərdə Hindistan hökumətinin zikh icmasına qarşı təzyiq və təqibləri daha da geniş vüsət alıb və beynəlxalq narahatlıq doğurur" .

Dünyanın əksər ölkələrinin, xüsusilə də Azərbaycanın vətəndaş cəmiyyətinin siqhlərə göstərdiyi dəstək öz müsbət nəticəsini verəcəyi şübhəsizdir.

***İLHAM ƏLİYEV***

SON SƏHİFƏ
SƏS
13 mart
2026-cı il

# Ailə büdcəsinə necə qənaət edək?



**Hər kəsin bilməli olduğu qızıl kimi faydalı məsləhətlər..**

***Ailə büdcəsi ilə bağlı problemlər bir çox ailənin gündəlik həyatında stress və narahatlıq yaradır. Xərclərin düzgün planlaşdırılmaması nəticəsində ailənin maliyyə vəziyyəti zəifləyə, qənaət imkanları məhdudlaşa və gözlənilməz xərclər qarşısında hazırlıqsız qala bilir. SİA mövzu ilə bağlı araşdırma edib.***

## Ailənin gündəlik xərclərində əsas pul itkisi yaradan sahələr

**Qida və ərzaq xərcləri**

Ailə büdcəsində ən böyük payı tez tez qida məhsullarına xərclər təşkil edir.

-Lazımsız impulsiv alışlar (fərqli qəlyanaltılar, çoxlu qablaşdırılmış məhsullar)

-Restoran, kafe və çatdırılma xidmətlərinə tez tez baş vurmaq

## Necə azaltmaq olar?

-Həftəlik menyu planı tərtib edin və siyahı üzrə alış verin.

-Qida məhsullarını topdan almağı düşünün.

-Evdə yemək hazırlamağı üstün tutun və çatdırılma xidmətlərini yalnız xüsusi hallarda istifadə edin.

-Endirim və kuponlardan ağıllı istifadə edin.

## Nəqliyyat xərcləri

Xüsusilə şəhərdə yaşayan ailələr üçün nəqliyyat xərcləri ciddi yüklənə bilər:

-Benzin və ya dizel

-Avtobus/taksi xərcləri

-Avtomobil saxlanma və təmir xərcləri

## Necə azaltmaq olar?

-İmkan daxilində piyada və ya velosipedlə qısa məsafələrə getmək.

-Avtomobil paylaşma və ictimai nəqliyyatı daha səmərəli istifadə etmək.

-Benzinlə hərəkət üçün səmərəli marşrut planlaşdırmaq.

## Enerji və kommunal xərclər

Elektrik, su, qaz kimi xidmətlər üçün ödənişlər də gündəlik büdcəni azalda bilər:

-İstifadə edilməyən cihazların işlədilməsi

-Su və enerjidə israf

## Necə azaltmaq olar?

-Enerji səmərəli LED lampalar istifadə edin.

-Suya qənaət edən başlıqlar quraşdırın.

-Qışın soyuq aylarında izolyasiyanı yaxşılaşdırın, istilik itkisini azaldın.

Telekommunikasiya və əyləncə

Telefon, internet, kabel TV, video oyunlar kimi xərclər çox vaxt nəzərə çarpmır, amma hesablar toplananda böyük məbləğ təşkil edə bilir.

## Necə azaltmaq olar?

-Paketləri yenidən nəzərdən keçirin və yalnız istifadə etdiyiniz xidmətlər üçün ödəyin.

-Ailə üçün daha sərfəli plan və paketlər seçin.

-Daha ucuz alternativlər və promosyonlardan istifadə edin.

Kredit və borclara ödənişlər

Kredit kart borcları və faizlər də büdcəni xeyli zəiflədə bilər.

## Necə azaltmaq olar?

-Faizsiz və ya daha aşağı faizli kreditlər axtarın.

-Borcları prioritetləşdirin və planlı şəkildə ödənişə fokuslanın.

-Lazımsız kredit kartlarından istifadə etməyin.

**Pul itkisini azaldan ümumi strategiyalar**
**Büdcə planı hazırlayın**

Aylıq gəlir və xərcləri yazın, prioritetləri müəyyən edin və qısa müddətli məqsədlər qoyun.

## Gündəlik xərcləri qeyd edin

Telefon tətbiqi və ya gündəlik qeydlər vasitəsilə nə qədər xərclədiyinizi izləyin.

**"İstək" ilə "ehtiyac"ı ayırd edin**

Əvvəlcə ehtiyaclara (əziz qida, kommunal xidmətlər), sonra isə istəklərə (əyləncə, lüks məhsullar) pul ayırın.

## Ailə ilə maliyyə məsləhətləşməsi

Maliyyə qərarları ailə üzvləri arasında müzakirə olunarsa, qənaət daha asan olur.

Ailə büdcəsində pul itkisinə səbəb olan gündəlik xərclər əsasən qida, nəqliyyat, kommunal xidmətlər, telekommunikasiya və borc ödənişləri ilə bağlıdır. Bu xərcləri daha ağıllı planlaşdırmaq və mümkün qənaət yollarını tətbiq etmək ailənin maddi vəziyyətini stabilləşdirə, maliyyə stressini azalda və qənaət etməyi asanlaşdıra bilər.

***Ayşən Vəli***

ARAŞDIRMA


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# 6 BÜRC ayın 15-nə qədər sərvət içində ÜZƏCƏK



*Bəzi bürclər martın 15-nə qədər peşəkar və maliyyə həyatlarında mühüm dəyişikliklərlə qarşılaşa bilərlər.*

Milli.Az xəbər verir ki, bu dövr yeni layihələr, əlavə qazanc imkanları və gəlirin sabitləşməsi baxımından əlverişli hesab olunur.

Kimlər xərclərinə daha diqqətli yanaşmalıdır, kimlərin isə maliyyə şansı daha çox olacaq?

## Xərçəng

Həftənin sonuna qədər xərclərinizi daha diqqətlə idarə etməyiniz tövsiyə olunur. Gözlənilməz vəziyyətlər pul axınında dəyişiklik yarada bilər. Emosional və tələsik maliyyə qərarlarından uzaq durmaq daha yaxşıdır.

## Şir

Şir bürcü üçün peşəkar sahədə aktiv və məhsuldar dövr başlayır. İşdə və ya biznesdə özlərini göstərmək üçün yeni imkanlar yarana bilər. Lakin maliyyə nəticələrinin hiss olunması bir qədər zaman tələb edəcək.

## Qoç

Qoçlar üçün bu mərhələ maliyyə planlarını yenidən nəzərdən keçirmək və gələcək strategiya qurmaq üçün münasibdir. Yeni qazanc ideyaları ortaya çıxa bilər, lakin onların həyata keçməsi səbir və düzgün planlama tələb edəcək.

## Tərəzi

Uzun müddətdir maliyyə sabitliyi arzulayan Tərəzilər nəhayət bu istiqamətdə müsbət dəyişikliklər hiss edə bilərlər. Gəlir və xərclər arasında balans yaranması daxili rahatlıq gətirə bilər.

## Oxatan

Oxatan bürcü üçün əsas diqqət uzunmüddətli maliyyə planlarına yönəlməlidir. Ümumi vəziyyət sabit qalacaq və gəliri artırmaq üçün yeni imkanları araşdırmaq üçün uyğun vaxtdır.

## Oğlaq

Oğlaqlar üçün maliyyə intizamı ön planda olmalıdır. Büdcəni düzgün planlaşdırmaq lazımsız xərclərin qarşısını ala bilər. Bu dövr investisiya və gələcək planlar üçün də əlverişli sayılır.

Karyera və maliyyə baxımından ən sabit və uğurlu görünən bürclər isə Tərəzi, Şir və qismən Oxatan hesab olunur.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**